# "ERNST & YANQ HOLDİNQS (SİAYES) Bİ.Vİ." AZƏRBAYCANDA




Ernst & Yanq şirkəti 1903-cü ildə Elvin Ernst tərəfindən təsis edilmiş Ernst & Whinney şirkəti ilə 1906-cı ildə Artur Young tərəfindən təsis edilmiş, A.C.Young şirkətinin 1989-cu ildə birləşməsi nəticəsində yaranmışdır. 2008-ci ildə "BusinessWeek's" jurnalının «Karyeranı başlamaq üçün ən yaxşı yer» (The Best Places to Launch a Career) siyahısında birinci yeri tutmuşdur. 2009-cu ildə "Fortune" jurnalının «İşləmək üçün 100 ən yaxşı şirkət» siyahısında 44-cü, «Böyük dördlük» də isə lider mövqe tutmuşdur. 2012-ci ildə ABŞ-nın "Great Place to Work" institutu Ernst & Yanq şirkətini "dünyanın ən yaxşı işəgötürəni" beynəlxalq şirkətlər siyahısına (World's Best Multinational Workplaces) daxil etmişdir. Bu siyahı şirkətlərdə hər il aparılan əmək şəraitinin öyrənilməsi üzrə beynəlxalq tədqiqat əsasında dünyanın 25 lider şirkətini müəyyən edir. Ernst & Yanq şirkətinin 150 ölkədə 728 ofisi fəaliyyət göstərir. Əməkdaşlarının ümumi sayı 167 min nəfərdir.

Azərbaycanda 19 il bundan əvvəl ofis açan şirkət, respublikada və regionlarda peşəkar xidmətlər göstərən ilk beynəlxalq şirkət olmuşdur. Bu gün Ernst & Yanq yerli və beynəlxalq şirkətlərə, eləcə də dövlət müəssisələrinə beynəlxalq iqtisadi məsələlərlə




bağlı müxtəlif peşəkar xidmətlər göstərir. Hal hazırda şirkətin Bakı ofisində Azərbaycan Respublikasındakı müştərilərə xidmət göstərən 150-yə yaxın işçi çalışır. Bundan əlavə, Ernst & Yanq şirkətinin işçiləri Gürcüstan, Qazaxıstan, Özbəkistan və Rusiyadakı müştərilərə xidmət göstərir. Şirkətin ən dəyərli sərvəti onun əməkdaşlarıdır. Heyətin təlimləndirilməsi Rusiya, Böyük Britaniya və ABŞ ilə mübadilə proqramları əsasında həyata keçirilir və yerlərdə davam etdirilir. Ernst & Yanq şirkətinin təcrübəli mütəxəssisləri yerli və beynəlxalq mühasibat

uçotu, xüsusilə CPA (ABŞ-ın Diplomlu İctimai Mühasibləri) və ACCA (Yüksək İxtisaslı Lisenziyalı Mühasiblər Assosiasiyası) lisenziyalarına sahibdir. CPA və ACCA proqramlarında iştirak edən işçilərin sayı ildən ilə artır. Ernst & Yanq şirkətinin Bakı ofisi müxtəlif çeşiddə peşəkar xidmətlər, o cümlədən auditor xidmətləri, vergi və hüquq xidmətləri, əməliyyatların müşahidə olunması xidmətləri, biznes məsləhət xidmətləri, Azərbaycanın və dünyanın aparıcı şirkətləri üçün peşəkar təlim seminarları təklif edir.

Ernst & Yanq şirkətinin ölkəmizdə fəaliyyəti haqqında geniş məlumat əldə etmək üçün "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan üzrə İdarəedici Partnyoru İlqar Vəliyevdən aldığımız müsahibəni diqqətinizə təqdim edirik.

**?** Hörmətli İlqar müəllim!
İcazə verin, Ernst & Yanq şirkətinin Azərbaycan fəaliyyəti haqqında söhbətimizə keçməzdən əvvəl Sizi APFM və jurnalımızın redaksiya heyəti adından "AMCHAM" - Azərbaycanda Amerika Ticarət Palatasının Prezidenti seçilməyiniz münasibəti ilə ürəkdən təbrik edək! Arzu edirik ki, rəhbərlik etdiyiniz qurum Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində öz töhfəsini versin və əminik ki, bu məhz belə də olacaq. Eyni zamanda ümid edirik ki, Palata Azərbaycan və ABŞ arasındakı maliyyə və biznes əməkdaşlığında da əsas həlqələrdən biri olacaq.

Təşəkkür edirəm.

İndi isə Ernst & Yanq şirkətinin Azərbaycanda fəaliyyəti haqqında. İlk öncə Sizdən oxucularımıza, xüsusən gənc mütəxəssislərə, şirkətiniz haqqında ümumi məlumat verməyinizi xahiş edirik.

Ernst & Yanq dünyanın ən iri konsaltinq və audit şirkətlərindən biridir. Şirkətin dünyanın bir çox ölkəsində şəbəkələri mövcuddur. Ernst & Yanq Azərbaycanda fəaliyyətə başlayan ilk xarici audit şirkətidir. Şirkət Azərbaycanda 1994 - cü ildən fəalliyət göstərərək audit, vergi, biznes məsləhətləri və əməliyyatların müşayiət olunması sahələrində peşəkar xidmətlər göstərən lider təşkilatdır. Şirkətdə 150 nəfərə yaxın işçi fəaliyyət göstərir və onların əksəriyyətini yerli mütəxəssislər təşkil edir. Onu da xüsusi ilə vurğulamaq istəyirəm ki, Ernst & Yanq hər zaman gənclərlə işləməyə üstünlük vermiş və daim onların peşəkar inkişafına maraq göstərmişdir. Öz təcrübəmdən deyə bilərəm ki, burada işlədiyim 19 il ərzində hər zaman şirkət tərəfindən gənc mütəxəssislərin peşəkar inkişafına yönəldilmiş addımlar görmüşəm. Bu səbəbdən biz hər il vergi məsləhətləri, audit və biznes məsləhətləri departamentlərinə yeni kadrlar cəlb edirik. Mən özüm də bu prosesdə yaxından iştirak edirəm. Çox sevindirici haldır ki, bizə daim işə qəbul olmaq üçün gənc, savadlı mütəxəssislər müraciət edir, bizim böyük ailəmizə qoşulmaq istəyirlər.

**?** Ernst & Yanq Azərbaycana necə gəldi və gəlişi zamanı qarşısına qoyduğu prioritet məsələlər hansılar idi?

Ernst & Yanq şirkətinin Azərbaycanda fəaliyyətə başlamasına əsas səbəb ölkəmizdə "Əsrin müqaviləsi"-nin bağlanması nəticəsində müxtəlif iri xarici investorların fəaliyyətə başlaması olmuşdur. Ölkə rəhbərliyinin uzaqgörən siyasəti nəticəsində buraya iri xarici şirkətlərin (həm neft, həm də qeyri-neft sahəsində fəaliyyət göstərən) marağı artmışdır. Ernst &Yanq daim öz müştərilərinin yanında olmuş, onları hər zaman dəstəkləmiş və bu səbəbdən xarici şirkətlərlə birgə Azərbaycanda fəaliyyətinə başlamışdır. Bir azərbaycanlı kimi böyük qürur hissi ilə qeyd etmək istərdim ki, hal hazırda bizim müştərilərimizin böyük bir hissəsini yerli şirkətlər təşkil edir.

**Vurğuladığınız kimi, burada Siz xarici şirkətlərlə yanaşı yerli şirkətlər ilə də layihələr həyata keçirirsiniz. Azərbaycanda fəaliyyət göstərdiyiniz müddət ərzində reallaşdırdığınız ən iri layihələrdən hansılarını qeyd edə bilərsiniz?**

Sualınızı cavablandırmaq üçün əvvəlcə layihələr barədə deyil, peşəkar xidmət göstərdiyimiz şirkətlər barədə məlumat vermək istərdim. Bizim müştərilərimizin siyahısında iri neft şirkətlərinin – Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ), BiPi, LUKOYL, və s. maliyyə qurumları arasında – Azərbaycan Respublikası Dövlət Neft Fondu, Mərkəzi Bank, Kapital Bank, Paşa Bank və s., bunlardan əlavə, yerli iri holdinqlərin də adlarını çəkə bilərəm. Sevindirici hal odur ki, xidmətlərimizdən istifadə etmək istəyən yerli müəssisələrin sayı daim artmaqdadır. Bütün müştərilərimizlə layihələrimizi indi sadalasam çox vaxt tələb olunar. Mən xüsusilə şirkətimizin ARDNŞ ilə olan layihələrini qeyd etmək istərdim. Biz daima ARDNŞ-in yanında olmuşuq (həm Beynəlxalq Standartlara keçid zamanı, həm də Avrobondların buraxılışı zamanı dəstək olmuşuq). ARDNŞ-ni Azərbaycan iqtisadiyyatının aparıcı gücü hesab edirik. Ümumiyyətlə, qeyd etmək istərdim ki, layihələrin sayı çoxdur və onların davamlı olaraq artmasını şirkətimizin inkişafında çox pozitiv amil hesab edirəm.

**Bildiyimiz kimi şirkətiniz Azərbaycanda BMHS-ın tətbiqində böyük rol oynayır. Qeyd etməliyik ki, dünyanın bir çox ölkələrində olduğu kimi Azərbaycanda da Vergi uçotu ilə BMHS arasında müəyyən fərqlər var. Bu fərqlər maliyyə hesabatında təxirə salınmış vergidə əks olunur. Mövcud fərqlərin miqyasını necə dəyənləndirirsiniz və bu fərqlərin müəyyən səviyyədə aradan qalxması istiqamətində şirkətinizlə vergi orqanları arasında müəyyən məsləhətləşmələr aparılırmı?**

Çox maraqlı bir sualdır. Fikrimcə, vergi uçotu ilə BMHS arasında fərqlərin olması təbii haldır. Bu fərqlər dünyanın hər bir ölkəsində var və bu normal qarşılanmalıdır. BMHS əsasında hazırlanmış maliyyə hesabatlarının istifadəçiləri kommersiya təşkilatları, o cümlədən müxtəlif səhmdar cəmiyyətləridir. Vergi uçotu əsasında hazırlanmış hesabatların istifadəçiləri isə əsasən dövlət vergi orqanlarıdır və onların öz tələbləri mövcuddur. Hal-hazırda müəyyən fərqlər aradan qaldırılıb və BMHS-in tələblərinə uyğundur, qalan fərqlər isə izah olunandır . Belə ki, hər bir ölkə öz fiskal siyasətini aparmaqla bu yönəmdə müəyyən tələblər irəli sürür. Ümumiyyətlə bu iki uçotun bir-biri ilə tam uyğunlaşması məqsəd kimi qoyulmamalıdır. Əsas odur ki, maliyyə hesabatları şəffaf olsun və istifadəçi istənilən halda fərqlərin səbəbini müəyyən edə bilsin.

**Şirkətiniz Azərbaycanda mühasibat uçotu, audit və menecment sahəsində olan yeniliklərin tətbiqində xüsusi rol oynayır. Fikrinizcə Azərbaycanda iqtisadiyyat və maliyyə sahəsinin daha hansı istiqamətlərində beynəlxalq təcrübənin tətbiqinə ehtiyac var?**

Vurğulamalıyam ki, XXI əsrdə beynəlxalq səviyyədə cərəyan edən proseslərdən kənarda qalmaq mümkün deyil. Hesab edirəm ki, beynəlxalq təcrübə iqtisadiyyatımızın bütün sahələrində geniş tətbiq olunmalıdır. Mühasibat uçotu və maliyyə hesabatı bunun yalnız bir hissəsidir. Sahəm üzrə onu deyə bilərəm ki, müəssisələrin öz davamlı inkişafı üzrə hesabatlarının hazırlanması sahəsində beynəlxalq

təcrübənin öyrənilməsi çox faydalı olardı. Hal-hazırda beynəlxalq aləmdə müəssisənin mənfəət əldə etmə qabiliyyətindən daha çox müəssisənin ictimaiyyətə verdiyi töhfə üstünlük təşkil edir. Eyni zamanda bir maliyyəçi kimi düşünürəm ki, müəssisənin maliyyə cəhətdən inkişafının əsasını yalnız pul qazanmaq bacarığı təşkil etməməlidir – bu sadəlövh və qısa perspektivli düşüncədir. Bu səbəbdən hazırda dünyada davamlı inkişafa xüsusi önəm verilir. Davamlı inkişaf – cəmiyyətdə düzgün mövqe tutmaq, geniş infrastruktur yaratmaqdır. Bu səpkidə fəaliyyət göstərən müəssisə cəmiyyətdən nə ala biləcəyi barədə düşünməkdən daha çöx cəmiyyətə nə verəcəyi barədə düşünməlidir. Hazırda dünyada bir çox müəssisələr davamlı inkişaf haqqında hesabat hazırlayır. Azərbaycanda bu cür hesabatı hazırlayan ilk şirkət məhz ARDNŞ olmuşdur. Beynəlxalq təcrübənin tətbiq olunduğu digər sahələr arasında işgüzar etikasının tətbiq edilməsi və şəffaflığın artırılmasını qeyd etmək olar. Digər istiqamət qismində Azərbaycan müəssisələrinin qiymətli kağızlar və ya istiqrazların buraxılışını və ümumiyyətlə, beynəlxalq qiymətli kağızlar bazarında iştirakını qeyd etmək olar. Bu bazara çıxış əldə etmək üçün müəssisə ciddi nəzarət olunan tələblərə cavab verməlidir. Bu baxımdan da beynəlxalq təcrübənin öyrənilməsi faydalıdır.

Eyni zamanda vergi sistemində də yeniliklərin tətbiqini qeyd etmək olar: elektron audit, elektron hökümətin yaradılması və s. kimi hallarda da beynəlxalq təcrübədən yararlanmaq olar.

Azərbaycanda fəaliyyət göstərən müəssisələrin fəaliyyətlərinin qeyd etdiyimiz istiqamətlər üzrə qurulması ölkəmizdə işgüzar iqlimin daha da optimallaşmasına və öz növbəsində iqtisadi inkişafın daha da sürətlənməsinə təkan verə bilər.

**? Müsahibənin əvvəlində qeyd etdiyiniz kimi şirkətiniz gənc mütəxəssislərə xüsusi önəm verir. İşçilərinizin qarşısında təhsil səviyyəsi baxımından hansı tələblər var və yaxşı auditor olmaq üçün adi auditor nə etməlidir?**

İlk öncə onu vurğulamalıyam ki, Ernst & Yanq tələbləri işçilərinin qarşısında deyil, öz qarşısında müəyyən edir. Bizim məqsədimiz gənc, istedadlı, gələcəyini öz zəhməti ilə qurmaq istəyən insanlara lazımi inkişaf şəraiti yaratmaqdır. İşə qəbul etdiyimiz mütəxəssislər təhsil ocağlarını artıq bitirdiklərinə baxmayaraq, daim peşəkar səviyyələrini artırırlar. Burada iş prosesi zamanı təcrübənin əldə edilməsi ilə yanaşı müxtəlif kurs və təlimlərdə də iştirak nəzərdə tutulur. Sualınızın ikinci hissəsinə cavab olaraq bildirmək istərdim ki, peşəkar mütəxəssis olmaq üçün daim özünə qarşı bir mənada tələbkar olmalısan. Öz bilik səviyyəndən razı olduğun andan etibarən bil ki, inkişafın dayanıb. Bilik əldə etmək istəyi olan şəxsdə daim inkişaf olacaq. Hər halda bu bizim üçün ən vacib amillərindən biridir. Müştərilərimizə yüksək səviyyədə xidmət göstərmək üçün biz daim öz peşəkar inkişafı üzərində işləyən mütəxəssislərdən ibarət şirkət olmalıyıq.

**? Sirr deyilsə, gələcək planlarınız haqqında nə deyə bilərsiniz?**

Onu deyə bilərəm ki, planlar olduqca çoxdur, qarşımıza qoyulan məqsədlər də çoxdur. Bizim uğurumuz  birbaşa olaraq Azərbaycanın iqtisadi inkişafı ilə bağlıdır. Planlarımız – Azərbaycan vətəndaşı olan yeni cavan mütəxəssislər cəlb etmək, öyrətmək, bütün yenilikləri vaxtında tətbiq etmək və müştərilərin tələblərinə uyğun olmaq, onları anlamaq, onlarla eyni dildə danışmaqdır.

**? Dünyanın bir çox ölkələrində assosiasiyaların üzvlük baxımından genişlənməsi müşahidə olunur, o**

cümlədən Azərbaycanda. Məsələn, APFM Azərbaycanda üzvlərinin sayının genişləndirilməsinə maraq göstərir və onlara xüsusi imtiyazların verilməsi barədə düşünür. Bu növ assosiyasiyaların fəaliyyətini necə qiymətləndirirsiniz və üzvlərə hansı imtiyazların verilməsini tövsiyə edərdiniz?

Yeri gəlmişkən mən APFM-ın təsisçilərinə assosiasiyanı yaratdıqları üçün öz minnətdarlığımı bildirmək istərdim. Bu prosesdə iştirak etdiyim üçün qürur duyuram. Assosiasiyanın Müşahidə Şurasının üzvi kimi onu bildirmək istərdim ki, qurumun yarandığı ilk gündən onun fəaliyyəti barəsində çox böyük müzakirələr aparılıb və hal-hazırda bu assosiasiyanın əldə etdiyi nailiyyətləri görmək mənim üçün sevindirici haldır. Xüsusən, bu qurumun təsis etdiyi "Finansist" jurnalı barədə fikir bildirmək istərdim. Əminəm ki, jurnal böyük oxucu auditoriyası əldə edəcək və mütəxəssislər üçün bir tədris vəsaiti rolunu oynayacaq. Jurnal peşəkar səviyyədə tərtib olunub və mövzu baxımından çoxşaxəlidir. Ümumiyyətlə, peşəkar qurumların fəaliyyəti haqqında onu da qeyd etmək istərdim ki, bu növ qurumlar fikirləri bir nöqtəyə cəmləyir və bu fikirlər bir mənbədən səslənəndə daha nüfuzlu və eşidilən olur. Maliyyə menecerləri qarşısında yaranan suallar daim artır və onların birgə həlli daha məqsədəuyğundur. Maliyyə meneceri çox geniş anlayışdır. Bu geniş şaxəli fəaliyyəti icra etmək üçün təcrübə mübadiləsi xüsusi önəm daşıyır. Bu baxımdan assosiasiya bir növ platforma rolunu oynayır.

İmtiyazlara gəldikdə isə onu deməliyəm ki, mənim şəxsi fikrimcə, APFM – kommersiya təşkilatı deyil. O, peşəkar maliyyə menecerləri üçün yaradılmışdır və bu assosiasiyaya üzv olmaq özü bir imtiyazdır, hər halda mənim üçün. Assosiasiyanın fəaliyyətinin uğurlu olması, dövlət və ictimai qurumlar ilə əlaqələrinin genişləndirilməsi dinamikası üzvlərin inkişaf fürsətlərinin çoxalmasına birbaşa təsir göstərir. Yəni imtiyazlarımızın çox olması özümüzdən asılıdır. Şəxsən mənim üçün ən böyük imtiyaz - peşəkarlar arasında ortaq fikrin yaranması, ünsiyyət imkanları və təcrübə mübadiləsidir.

? Fürsətdən istifadə edərək jurnalımızın təqdimat mərasimində aktiv iştirakınıza görə bir daha Sizə təşəkkür edirik.

Çox sağ olun! Ən məsuliyyətli missiya mənim üzərimə düşdü: tortu mən kəsdim.

Öhdəsindən məharətlə gəldiniz.

? Və sonda bizim ənənəvi sualımız: Jurnalın müsbət tərəflərini qeyd etdiniz, bəs inkişaf baxımından jurnalda daha hansı rubrikaları görmək istərdiniz?

Əlbəttə, jurnalın ilk buraxılışlarından yeni rubrikalar haqqında danışmaq çətindir və düzgün olmazdır. Məqsəd o deyil ki, jurnal məhz mənim xoşuma gəlsin. Burada məqsəd geniş oxucu auditoriyası əldə etməkdir. Mən istərdim ki, burada mürəkkəb maliyyə mövzularını sadə müxbir dilində eşidim. Jurnalın darıxdırıcı olmamasını arzu edirəm. Yaxşı olardı ki, bu jurnalda vergi qanunvericiliyi və normativ aktlarda olan ən son yeniliklər işıqlandırılsın. Burada aktual məsələlərin müzakirəsinə həsr olunmuş sual-cavab rubrikasının yer alması, oxucuların suallarını dövlət qurumlarının nümayəndələri tərəfindən cavablandırılması maraqlı olardı. Bu tipli mövzuların jurnalda yerləşdirilməsi oxucuların çoxalmasına səbəb ola bilər. Bir daha işlərinizdə uğurlar arzulayıram.

***Ramil Bağırov***